**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyi**
**BAKI DÖVLƏT**
**UNİVERSİTETİ**
**Ə M R**
**02.12.10 № R-77**
**Bakı şəhəri**

**MƏZMUNU: "Türkoloji araşdırmalar" Elmi Tədqiqat Laboratoriyasının açılması haqqında Azərbaycan Respublikası Təhsil Nazirinin 1088 saylı 12 iyul 2010-cu il tarixli əmrini və Bakı Dövlət Universitetinin R-72 saylı 11.11.2010-cu il tarixli əmrini əsas tutaraq**

**ƏMR EDİRƏM**

1. "Türkoloji araşdırmalar" Elmi Tədqiqat Laboratoriyası 10 dekabr 2010-cu il tarixindən Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin "Türkologiya" kafedrasının nəzdində fəaliyyətə başlasın.
2. "Türkoloji araşdırmalar" Elmi Tədqiqat Laboratoriyanın fəaliyyətinə elmi rəhbərlik kafedra müdirinə tapşırılsın.
3. BDU-nun baş mühasibi F.H.Babayevaya tapşırılsın ki, Azərbaycan Respublikası Təhsil Nazirinin 1088 saylı 12.07.2010-cu il tarixli əmri ilə "Türkoloji araşdırmalar" Elmi Tədqiqat Laboratoriyasına ayrılmış ştat vahidlərinə əsasən ştat cədvəli tərtib etsin.
4. "Türkologiya" kafedrasının müdirinə tapşırılsın ki, bir ay müddətinə "Türkoloji araşdırmalar" Elmi Tədqiqat Laboratoriyasının strukturunu formalaşdırsın, elmi-tədqiqat işlərinin planını hazırlayıb, Elmi Şurada təsdiq etdikdən sonra Elmi Tədqiqat Hissəsinə təqdim etsin.

**ƏSAS:** Rektorun və Elmi işlər üzrə prorektorun dərkənarları ilə Təhsil Nazirliyinin 12.07.2010-cu il tarixli 1088 saylı əmri, Filologiya fakültəsi dekanının təqdimatı və Bakı Dövlət Universitetinin R-72 saylı 11.11.2010-cu il tarixli əmri.

**REKTOR:** **akademik A.M.MƏHƏRRƏMOV**